Azərbaycan Qiymətləndiricilər Palatası (AQP)

NAZİRLƏR KABİNETİNİN QƏRARLARI

Qiymətləndirmə fəaliyyətinə aid qərar və sərəncamlardan çıxarışlar

Bu bölmədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qiymətləndirmə fəaliyyətinə aid qüvvədə olan qərar və sərəncamlarından çıxarışlar verilir. Bölməyə "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanuna istinad edən və ya qiymətləndiricinin cəlb edilməsini nəzərdə tutan aktlar daxil edilib. Mətnlər e-qanun.az hüquqi informasiya portalından 13 noyabr 2026-cı il tarixinə olan vəziyyətə görə dəyişdirilmədən götürülüb.

Qiymətləndirmə fəaliyyətini bilavasitə tənzimləyən qərarlardan geniş çıxarış verilir, digər aktlardan isə yalnız qiymətləndirməyə aid bəndlər götürülür. Hər aktın yanında onun rəsmi mətninə keçid göstərilir. Hüquqi qüvvəyə aktın rəsmi dərc olunmuş mətni malikdir. Bölmə yeni aktlar qəbul edildikcə yenilənir.

Bölməyə daxil edilən aktlar:

№	Akt	Tarixi və nömrəsi	Mövzu
	1. Qiymətləndirmə fəaliyyətini tənzimləyən qərarlar		
1	Qərar	20.05.2024, № 267	İxtisas imtahanları və ixtisas şəhadətnaməsi
2	Qərar	05.08.2024, № 376	Peşə məsuliyyətinin sığortasına minimum tələblər
3	Qərar	15.01.2025, № 8	İcra sənədləri üzrə qiymətləndirmə haqqının yuxarı həddi
4	Qərar	13.05.2025, № 158	Qeyri-rezidentlərin akkreditasiyası
	2. Qanunun tətbiqi ilə bağlı sərəncamlar		
5	Sərəncam	11.01.2024, № 15s	Qanunun tətbiqi üzrə tapşırıqlar
6	Sərəncam	29.02.2024, № 133s	Palatanın təsisi üçün təşkilat komitəsi
7	Sərəncam	23.04.2025, № 231s	Aktların 158-VIIQD nömrəli Qanuna uyğunlaşdırılması
8	Sərəncam	27.08.2026, № 637s	Aktların 459-VIIQD nömrəli Qanuna uyğunlaşdırılması
	3. Digər qərarlardan çıxarışlar		
9	Qərar	27.04.1998, № 93	Torpaq sahələrinin normativ qiyməti
10	Qərar	24.01.2001, № 23	Özəlləşdirilən obyektlərin ilkin qiyməti
11	Qərar	06.11.2004, № 177	Əsas vəsaitlərin silinməsi
12	Qərar	10.07.2015, № 265	Təbiət Tarixi Muzeyinin Nizamnaməsi
13	Qərar	13.09.2024, № 421	Liman obyektlərinin icarəsi
14	Qərar	28.12.2024, № 547	Dövlət ehtiyatları
15	Qərar	18.04.2002, № 69	Müsadirə edilmiş və sahibsiz əmlak
16	Qərar	06.09.2002, № 143	Üzərinə həbs qoyulmuş əmlak
17	Qərar	19.10.2012, № 237	Gömrük hərracları
18	Qərar	22.12.2014, № 396	Dəniz terminalında yükün realizəsi
19	Qərar	18.12.2017, № 564	İnzibati icraatda götürülmüş mallar
20	Qərar	06.08.2019, № 343	Geri alınmış əmlakın hərracda satışı
21	Qərar	30.12.2020, № 516	Xüsusi müsadirə edilmiş əmlak

№	Akt	Tarixi və nömrəsi	Mövzu
22	Qərar	24.09.2022, № 371	Mənzillərin hərrac vasitəsilə satışı
23	Qərar	04.08.2023, № 267	Problemli aktivlərin satışı
24	Qərar	16.04.2007, № 66	Baytarlıq tədbirləri ilə dəyən ziyan
25	Qərar	26.11.2019, № 455	Hərbi vəziyyət rejimi üzrə kompensasiya
26	Qərar	28.12.2023, № 484	Radiotezlik istifadəçilərinə kompensasiya
27	Qərar	11.09.2000, № 167	Notariat hərəkətləri
28	Qərar	13.08.2020, № 293	İpoteka kağızı
29	Qərar	25.07.2023, № 239	Siyasi partiyalara ianələr
30	Qərar	30.12.2023, № 501	Dövlət satınalmalarında ehtimal olunan qiymət
31	Qərar	19.03.2026, № 85	Texniki xidmət məlumatları reyestri

1. Qiymətləndirmə fəaliyyətini tənzimləyən qərarlar

Nazirlər Kabinetinin 2024-cü il 20 may tarixli 267 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/56914

"Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün ixtisas imtahanlarının təşkili və keçirilməsi, qiymətləndiricinin ixtisas şəhadətnaməsinin forması və verilməsi Qaydaları"nın təsdiq edilməsi və ixtisas imtahanlarında iştirak etmək üçün ödənişin məbləğinin müəyyən edilməsi haqqında

"Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2443 nömrəli Fərmanının 2.3.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün ixtisas imtahanlarının təşkili və keçirilməsi, qiymətləndiricinin ixtisas şəhadətnaməsinin forması və verilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. İxtisas imtahanlarında iştirak etmək üçün ödənişin məbləği 98 (doxsan səkkiz) manat müəyyən edilsin.

Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün ixtisas imtahanlarının təşkili və keçirilməsi, qiymətləndiricinin ixtisas şəhadətnaməsinin forması və verilməsi QAYDALARI

1. Ümumi müddəa

Bu Qaydalar "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra − Qanun) 6.6-cı maddəsinə uyğun olaraq hazırlanmışdır və qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün ixtisas imtahanlarının təşkili və keçirilməsi, qiymətləndiricinin ixtisas şəhadətnaməsinin forması və verilməsi qaydalarını müəyyən edir.

2.3. Test imtahanı bir mərhələdə keçirilir və proqrama uyğun olaraq hazırlanmış 30 (otuz) test tapşırığından ibarətdir. Test tapşırıqlarının aşağıdakı növləri vardır:

2.3.1. qapalı tipli - verilən cavab variantlarından 1 (bir) doğru cavabın müəyyənləşdirilərək qeyd edilməsi tələb olunan test tapşırıqları;

2.3.2. açıq tipli - cavab variantları verilməyən, doğru cavabın müəyyənləşdirilərək yazılı formada ifadə olunması tələb olunan test tapşırıqları.

3. Test imtahanın təşkili və keçirilməsi

3.1. İmtahanın təşkili, keçirilməsi və imtahan nəticəsində şəhadətnamələrin verilməsi Mərkəz tərəfindən həyata keçirilir.

3.3. İmtahan il ərzində 2 (iki) dəfə mərkəzləşdirilmiş qaydada ödənişli əsaslarla Mərkəz tərəfindən Bakı şəhərində və ya regionlar üzrə keçirilir.

3.4. Mərkəz bu Qaydaların 3.2.1-ci yarımbəndinə uyğun olaraq saytda ixtisas şəhadətnaməsi almaq məqsədilə imtahanın keçirilməsi haqqında sənəd qəbuluna dair elan verir. Namizəd elan verildiyi gündən 30 (otuz) gün müddətində imtahanda iştirak etmək üçün fərdi identifikasiya nömrəsi (Azərbaycan Respublikasının vətəndaşları üçün şəxsiyyət vəsiqəsinin FİN kodu, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş daimi yaşamaq üçün icazə vəsiqələrinin FİN kodu, qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin qaçqın vəsiqəsinin FİN kodu) göstərilməklə, Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabineti vasitəsilə aşağıda qeyd edilən sənədlər və (və ya) məlumatlar əsasında Mərkəzə elektron qaydada müraciət edir:

3.4.1. ali təhsil haqqında sənədin (diplomun) surəti;

3.4.2. 3 (üç) illik iş stajına malik olmasını təsdiq edən sənədin surəti;

3.4.3. məhkumluq barədə arayış.

3.6. Namizəd elektron müraciətində əldə etmək istədiyi ixtisas şəhadətnaməsinə uyğun olaraq qiymətləndirmə fəaliyyəti istiqamətlərindən birini seçir.

3.9. İmtahan sənəd qəbulunun başa çatdığı gündən ən geci 30 (otuz) gün müddətində qanunçuluq, obyektivlik, bərabərlik, şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirilir.

3.10. İmtahanın davametmə müddəti 1 (bir) saatdır.

3.11. İmtahan üzrə toplanılması mümkün olan ümumi (maksimal) bal 60-dır və həmin baldan 50 faiz və daha çox nəticə əldə etmiş namizəd imtahandan müvəffəqiyyətlə keçmiş hesab olunur.

3.13. İmtahanın nəticəsindən narazı qalan namizəd nəticənin elan olunduğu vaxtdan 3 (üç) iş günü müddətində Mərkəz tərəfindən yaradılmış apellyasiya komissiyasına müraciət edə bilər.

4. Qiymətləndiricilərə ixtisas şəhadətnamələrinin verilməsi

4.1. Mərkəz şəhadətnamələrin verilməsi üçün imtahanın nəticələri əsasında müvafiq qərar qəbul edir.

4.2. İmtahandan müvəffəqiyyətlə keçmiş namizədlərə imtahanda iştirak etdiyi qiymətləndirmə fəaliyyəti istiqaməti üzrə şəhadətnamələr bu Qaydaların əlavəsində göstərilən formada tərtib olunur və Mərkəzin səlahiyyətli şəxsi tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilərək elektron sənəd formasında Mərkəzin müvafiq informasiya sistemində formalaşdırılaraq namizədlərin Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetləri vasitəsilə təqdim edilir.

4.3. İxtisas şəhadətnaməsinin verilməsi üçün haqq tutulmur.

4.4. Bu Qaydaların 3.5-ci bəndi nəzərə alınmaqla namizəd tərəfindən bilərəkdən və ya kobud ehtiyatsızlıq nəticəsində bilmədiyi halda səhv və ya təhrif olunmuş məlumatları əks etdirən sənədlərin və ya məlumatların təqdim edilməsi müəyyən edildikdə, namizədin test imtahanında əldə etdiyi nəticə etibarsız hesab edilir və Mərkəz tərəfindən şəhadətnamənin ləğv olunması barədə müvafiq qərar qəbul edilir, 3 (üç) iş günü ərzindən elektron qaydada namizədə nəticəsinin etibarsız hesab edilməsinin səbəbləri izah olunan məlumat təqdim olunur. Bu qərardan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.

Nazirlər Kabinetinin 2024-cü il 5 avqust tarixli 376 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/57695

Qiymətləndiricinin peşə məsuliyyətinin sığortası üzrə sığorta təminatına və sığorta məbləğinə dair minimum tələblərin müəyyən edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2443 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Qiymətləndirmə fəaliyyəti həyata keçirilərkən qiymətləndiricinin etdiyi səhv və ya yol verdiyi ehtiyatsızlıq, yaxud diqqətsizlik halları əsasında onun fəaliyyəti üzrə "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərin, habelə qiymətləndirmə haqqında müqavilə şərtlərinin pozulması nəticəsində sifarişçiyə və (və ya) üçüncü şəxslərə dəymiş zərərin ödənilməsi qiymətləndiricinin peşə məsuliyyətinin sığortası üzrə sığorta təminatına dair minimum tələbdir.

2. Qiymətləndiricinin peşə məsuliyyətinin sığortası üzrə sığorta məbləğinin minimum həddi 200.000,0 (iki yüz min) manat müəyyən edilsin.

Nazirlər Kabinetinin 2025-ci il 15 yanvar tarixli 8 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/58766

"İcra sənədləri əsasında aparılan qiymətləndirməyə görə xidmət haqqının yuxarı həddi"nin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2443 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"İcra sənədləri əsasında aparılan qiymətləndirməyə görə xidmət haqqının yuxarı həddi" təsdiq edilsin (əlavə olunur).

İcra sənədləri əsasında aparılan qiymətləndirməyə görə xidmət haqqının yuxarı həddi

Sıra №-si	Tələbin dəyəri	Xidmət haqqının yuxarı həddi (ƏDV-siz)
1.	20 000 manatadək olduqda	150 manat
2.	20 000 manatdan 100 000 manatadək olduqda	150 manat + 20 000 manatdan yuxarı olan dəyərin 0,2 faizi
3.	100 000 manatdan 1000 000 manatadək olduqda	310 manat + 100 000 manatdan yuxarı olan dəyərin 0,1 faizi
4.	1 000 000 manatdan çox olduqda	1 210 manat + 1 000 000 manatdan yuxarı olan dəyərin 0,05 faizi

* İcra sənədləri əsasında aparılan qiymətləndirməyə görə xidmət haqqının məbləği 6 000 manatdan artıq olmamalıdır.

Nazirlər Kabinetinin 2025-ci il 13 may tarixli 158 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/59608

"Qeyri-rezident fiziki şəxslərin akkreditasiyadan keçirilməsi qaydası və həmin şəxslərə dair tələblər"in təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2443 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Qeyri-rezident fiziki şəxslərin akkreditasiyadan keçirilməsi qaydası və həmin şəxslərə dair tələblər" təsdiq edilsin (əlavə olunur).

Qeyri-rezident fiziki şəxslərin akkreditasiyadan keçirilməsi qaydası və həmin şəxslərə dair tələblər

1. Ümumi müddəa

"Qeyri-rezident fiziki şəxslərin akkreditasiyadan keçirilməsi qaydası və həmin şəxslərə dair tələblər" (bundan sonra – Qayda) "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 5.4-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və qeyri-rezident fiziki şəxslərin akkreditasiyasının keçirilməsi qaydasını və həmin şəxslərə dair tələbləri müəyyən edir.

2. Əsas anlayışlar

2.1. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. qiymətləndirmə fəaliyyəti - Qanunla müəyyən edilmiş hallarda, habelə sifarişçinin müəyyən etdiyi məqsədlər üçün qiymətləndirmə obyektinin dəyərinin qiymətləndirici tərəfindən müəyyən edilməsi üzrə fəaliyyət;

2.1.2. qeyri-rezident - xarici ölkədə qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq hüququ olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (Azərbaycan Respublikasının ərazisində daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istisna olmaqla);

2.1.3. akkreditasiya - qiymətləndirmə obyektinin qiymətləndirilməsi üzrə fəaliyyət göstərmək üçün qeyri-rezident fiziki şəxslərin bu Qayda ilə müəyyən edilmiş tələblərə uyğunluğunun akkreditasiya orqanı tərəfindən təsdiqi;

2.1.4. akkreditasiya şəhadətnaməsi - qeyri-rezident fiziki şəxslərin bu Qayda ilə müəyyən edilmiş tələblərə uyğunluğunu təsdiqləyən və onlara Azərbaycan Respublikasının ərazisində qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq hüququ verən sənəd;

2.1.5. akkreditasiya orqanı - Qanunun 18-ci maddəsində nəzərdə tutulan, qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq istəyən qeyri-rezident fiziki şəxslərin akkreditasiyasını həyata keçirən orqan - Qiymətləndiricilər Palatası.

3. Qeyri-rezident fiziki şəxslərə dair tələblər

3.1. Ali təhsilə və 3 (üç) ildən az olmayan ümumi iş stajına malik xarici ölkədə qiymətləndirmə fəaliyyəti ilə məşğul olan qeyri-rezident fiziki şəxslər Azərbaycan Respublikasının ərazisində qiymətləndirmə fəaliyyəti ilə məşğul ola bilərlər.

3.2. Qəsdən ağır və xüsusilə ağır cinayət, habelə xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən asılı olmayaraq korrupsiya cinayəti və qulluq mənafeyi əleyhinə olan digər cinayət, həmçinin iqtisadi sahədə cinayət törətməyə görə məhkumluğu ödənilməmiş və ya götürülməmiş,

barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı olan qeyri-rezident fiziki şəxslər qiymətləndirici ola bilməzlər.

4. Qeyri-rezident fiziki şəxslərin akkreditasiya orqanına müraciəti

4.1. Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq istəyən qeyri-rezident fiziki şəxslər akkreditasiyanın aparılması üçün akkreditasiya orqanına "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrində nəzərdə tutulmuş qaydada ərizə (əlaqə məlumatları göstərilməklə) təqdim edirlər.

4.2. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

4.2.1. qeyri-rezidentin şəxsiyyətini təsdiq edən sənədin (pasport, şəxsiyyət vəsiqəsi və s.) surəti;

4.2.2. biometrik identifikasiya tələblərinə uyğun 1 ədəd rəngli fotoşəkil (3x4 sm ölçüdə);

4.2.3. müraciəti qeyri-rezidentin nümayəndəsi etdikdə, qeyri-rezident adından çıxış etmək səlahiyyəti olan şəxsə verilən etibarnamə;

4.2.4. qeyri-rezident fiziki şəxsə xarici ölkədə verilmiş aşağıdakı sənədlərin qanunvericiliklə müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostil verilmiş və Azərbaycan dilinə tərcüməsi notariat qaydasında təsdiq edilmiş surəti:

4.2.4.1. ali təhsil haqqında sənəd (diplom);

4.2.4.2. 3 (üç) illik iş stajına malik olmasını təsdiq edən sənəd;

4.2.4.3. məhkumluq barədə sənəd;

4.2.4.4. qeyri-rezident fiziki şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməməsi haqqında sənəd;

4.2.4.5. qeyri-rezident fiziki şəxsə qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq hüququ verən sənəd.

4.3. Qeyri-rezident fiziki şəxsin müraciətinə əlavə edilməli olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar qeyri-rezident fiziki şəxsdən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi qeyri-rezident fiziki şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya qeyri-rezident fiziki şəxs tərəfindən təmin edilir.

4.4. Akkreditasiya olunmaq üçün qeyri-rezident fiziki şəxslərin müraciəti, sənədlərin və ya məlumatların tamlığı akkreditasiya orqanı tərəfindən 3 (üç) gün müddətində yoxlanılır (bu Qaydanın 4.3-cü bəndinin tələbləri nəzərə alınmaqla) və təsdiq edildikdən sonra qeyri-rezident fiziki şəxsin müraciəti qeydə alınır. Ərizəyə əlavə olunmalı sənədlərin siyahısında çatışmazlıq (bu Qaydanın 4.2-ci bəndinin tələbi nəzərə alınmaqla) aşkar olunduğu halda qeyri-rezident fiziki şəxsə bu barədə 3 (üç) gün müddətində elektron bildiriş göndərilir və ya əlaqə vasitəsilə məlumat verilir. Qeyri-rezident fiziki şəxsə çatışmazlıqları aradan qaldırmaq üçün 3 (üç) gün müddət verilir. Müraciətin qeydə alınmamasına səbəb olan çatışmazlıqlar aradan qaldırıldıqdan sonra müraciət qeydə alınır. Çatışmazlıqlar 3 (üç) gün müddətində aradan qaldırılmadıqda, qeyri-rezident fiziki şəxsin müraciəti qeydə alınmır.

5. Qeyri-rezident fiziki şəxslərin bu Qaydanın tələblərinə cavab verməsinin akkreditasiya orqanı tərəfindən araşdırılması

5.1. Bu Qaydanın 4.2-ci bəndində nəzərdə tutulmuş sənədlər və məlumatlar qeyri-rezident fiziki şəxs tərəfindən təqdim olunduqda, sənədlərdə və məlumatlarda çatışmazlıqlar aşkar

edilmədikdə və ya mövcud çatışmazlıqlar aradan qaldırıldıqda, qeyri-rezident fiziki şəxsin bu Qaydanın tələblərinə cavab verməsinin akkreditasiya orqanı tərəfindən araşdırılmasına başlanılır.

5.2. Qeyri-rezident fiziki şəxsin bu Qaydanın tələblərinə cavab verməsinin akkreditasiya orqanı tərəfindən araşdırılmasına başlanıldığı barədə məlumat müraciət etmiş şəxsə 3 (üç) iş günü müddətində göndərilir.

6. Akkreditasiya orqanı tərəfindən yekun qərarın qəbul edilməsi

6.1. Qeyri-rezident fiziki şəxsin akkreditasiya olunması haqqında və ya akkreditasiyadan imtina barədə yekun qərarın qəbul edilməsi müddəti müraciətin qeydiyyata alındığı gündən başlayaraq 15 (on beş) iş günündən çox olmamalıdır.

6.2. Qeyri-rezident fiziki şəxs tərəfindən təqdim olunmuş ərizəyə və ona əlavə edilmiş sənədlərə baxılmasının nəticəsi əsasında, həmçinin Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş qiymətləndirmə fəaliyyətinin istiqamətləri nəzərə alınmaqla qeyri-rezident fiziki şəxsin akkreditasiya olunması haqqında və ya akkreditasiyadan imtina barədə yekun qərar qəbul edilir.

6.3. Akkreditasiya olunması haqqında yekun qərar qəbul edilmiş qeyri-rezident fiziki şəxsə akkreditasiya şəhadətnaməsi 2 (iki) iş günündən gec olmayaraq təqdim edilir. Akkreditasiya şəhadətnaməsində onun qeydiyyat nömrəsi, şəhadətnaməni verən qurumun adı, qiymətləndirmə fəaliyyətinin istiqaməti, akkreditasiyadan keçmiş fiziki şəxsin soyadı, adı və atasının adı, şəhadətnamənin verildiyi tarix və etibarlılıq müddəti qeyd edilir. Akkreditasiya şəhadətnaməsi akkreditasiya orqanının səlahiyyətli şəxsi tərəfindən onun soyadı, adı və vəzifəsi göstərilməklə imzalanır.

6.4. Akkreditasiya şəhadətnaməsinin qüvvədəolma müddəti 2 (iki) ildir. Akkreditasiya şəhadətnaməsinin qüvvədəolma müddəti bitdikdən sonra yeni şəhadətnamənin alınması üçün bu Qaydanın tələblərinə uyğun olaraq ümumi qaydada müraciət edilə bilər.

6.5. Akkreditasiya şəhadətnaməsini aldıqdan sonra bu şəhadətnamədə göstərilən məlumatlarda hər hansı dəyişiklik baş verdikdə şəhadətnamənin sahibi həmin əsasların yarandığı gündən 5 (beş) gündən gec olmayaraq şəhadətnamənin yenidən rəsmiləşdirilməsi üçün akkreditasiya orqanına müraciət etməlidir. Müraciətə şəhadətnamənin yenidən rəsmiləşdirilməsi əsaslarını təsdiq edən sənədlər əlavə edilir. Müraciətə daxil olduğu gündən 10 (on) gün müddətində akkreditasiya orqanı tərəfindən baxılır, müvafiq düzəlişlər edilərək yenidən rəsmiləşdirilmiş şəhadətnamə ərizəçiyə təqdim edilir və əvvəlki şəhadətnamə ərizəçi tərəfindən akkreditasiya orqanına qaytarılır.

6.6. Akkreditasiya şəhadətnaməsi yararsız vəziyyətə düşdükdə və ya itirildikdə onun sahibi həmin şəhadətnamənin dublikatının verilməsi üçün akkreditasiya orqanına ərizə ilə müraciət edir. Akkreditasiya orqanı ərizənin daxil olduğu tarixdən 5 (beş) gün müddətində şəhadətnamənin eyni hüquqi qüvvəyə malik dublikatını hazırlayaraq ərizəçiyə təqdim edir. Akkreditasiya şəhadətnaməsinin dublikatının yuxarı sağ tərəfində "Dublikat" sözü yazılır və onun verilmə tarixi qeyd edilir.

6.7. Akkreditasiya şəhadətnaməsinin verilməsindən imtina olunduqda, bu barədə qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində şəhadətnamə almaq istəyən şəxsə təqdim edilir. Akkreditasiya şəhadətnaməsinin verilməsindən imtina şəxsin yenidən müraciət etməsinə mane olmur.

6.8. Akkreditasiya şəhadətnaməsi aşağıdakı hallarda ləğv edilir:

6.8.1. şəhadətnamə sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

6.8.2. şəhadətnamənin verilməsi üçün təqdim edilmiş sənədlərdə sonralar düzgün olmayan məlumatlar aşkar olunduqda;

6.8.3. bu Qaydanın 6.10-cu bəndində nəzərdə tutulan hallarda;

6.8.4. Qanunun 24.1.4-24.1.7-ci maddələrində nəzərdə tutulan hallarda.

6.9. Akkreditasiya şəhadətnaməsi bu Qaydanın 6.8-ci bəndində göstərilən hallara istinad edilməklə, akkreditasiya orqanının qərarı ilə ləğv edilir. Həmin qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində şəhadətnamənin sahibinə təqdim edilir.

6.10. Akkreditasiya şəhadətnaməsi əldə etmiş qeyri-rezident fiziki şəxs tərəfindən qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunvericiliyinin və qiymətləndiricinin etik davranış qaydalarının tələbləri pozulduqda Qiymətləndiricilər Palatası tərəfindən həmin şəxs barəsində Qanunda nəzərdə tutulmuş intizam tənbehi tədbirləri tətbiq edilir, həmçinin Qanunda nəzərdə tutulmuş hallarda fəaliyyətinə xitam verilir.

6.11. Qeyri-rezident fiziki şəxs akkreditasiya orqanının vəzifəli şəxslərinin hərəkətlərindən (qərarlarından) inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

2. Qanunun tətbiqi ilə bağlı sərəncamlar

Nazirlər Kabinetinin 2024-cü il 11 yanvar tarixli 15s nömrəli Sərəncamı. Rəsmi mətn: https://e-qanun.az/framework/56188

“Qiymətləndirmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2443 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında

“Qiymətləndirmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2443 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə:

1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla iki ay müddətində:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Qiymətləndirmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununa (bundan sonra – Qanun) uyğunlaşdırılması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının Qanuna uyğunlaşdırılması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla dörd ay müddətində aşağıdakı normativ hüquqi aktların layihələrini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin:

2.1.1. Qanunun 5.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, qeyri-rezident fiziki şəxslərin akkreditasiyadan keçirilməsi qaydası və həmin şəxslərə dair tələblər;

2.1.2. Qanunun 17.2-ci maddəsinə uyğun olaraq, icra sənədləri əsasında aparılan qiymətləndirməyə görə xidmət haqqının yuxarı həddi;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı və icra prosesində müəyyən ediləcək digər

aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Qanunun 23.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, qiymətləndiricinin peşə məsuliyyətinin sığortası üzrə sığorta təminatına və sığorta məbləğinə dair minimum tələblərə dair təkliflərini dörd ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, Qanunun 27.1.1-ci maddəsinə uyğun olaraq, Qiymətləndiricilər Palatasını təsis etmək hüququ olan şəxslərin müəyyən edilməsi, təsis yığıncağının hazırlanmasının və keçirilməsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyindən 3 (üç) nəfər və Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən 2 (iki) nəfər nümayəndə daxil olmaqla, 5 (beş) üzvdən ibarət təşkilat komitəsinin yaradılmasına dair təkliflərini on beş gün müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Qanunun 6.2-ci maddəsinin üçüncü cümləsinə və 6.6-cı maddəsinə uyğun olaraq, ixtisas imtahanlarında iştirak etmək üçün ödənişin məbləğinə, habelə ixtisas imtahanlarının təşkili və keçirilməsinə, qiymətləndiricinin ixtisas şəhadətnaməsinin formasına və verilməsi qaydalarına dair təkliflərini on beş gün müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Mərkəzi icra hakimiyyəti orqanları üç aydan gec olmayaraq, Qanunun icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Qanuna uyğunlaşdırılmasını təmin edib, bu barədə dörd ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

6. Bu Sərəncamın 1-ci, 4-cü və 5-ci hissələrinin icrası Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Hüquq və qanunvericilik şöbəsinə, 2-ci hissəsinin icrası İqtisadiyyat şöbəsinə, 3-cü hissəsinin icrası isə Humanitar məsələlər şöbəsinə həvalə edilsin.

7. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Nazirlər Kabinetinin 2024-cü il 29 fevral tarixli 133s nömrəli Sərəncamı. Rəsmi mətn: https://e-qanun.az/framework/56667

Qiymətləndiricilər Palatasını təsis etmək hüququ olan şəxslərin müəyyən edilməsi, təsis yığıncağının hazırlanmasının və keçirilməsinin təmin edilməsi məqsədilə təşkilat komitəsinin yaradılması haqqında

"Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2443 nömrəli Fərmanının 2.3.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə:

1. Qiymətləndiricilər Palatasını təsis etmək hüququ olan şəxslərin müəyyən edilməsi, təsis yığıncağının hazırlanmasının və keçirilməsinin təmin edilməsi məqsədilə aşağıdakı tərkibdə təşkilat komitəsi yaradılsın:

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Qeyd. Təşkilat komitəsinin şəxsi tərkibi verilmir.

Nazirlər Kabinetinin 2025-ci il 23 aprel tarixli 231s nömrəli Sərəncamı. Rəsmi mətn: https://e-qanun.az/framework/59584

"Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 158-VIIQD nömrəli Qanununun və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi və Fərmanının ləğvi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 aprel tarixli 366 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında

1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 158-VIIQD nömrəli Qanununa (bundan sonra – Qanun), həmçinin "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi və Fərmanının ləğvi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 aprel tarixli 366 nömrəli Fərmanına (bundan sonra – Fərman) uyğunlaşdırılması ilə bağlı təkliflərini beş ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

Nazirlər Kabinetinin 2026-cı il 27 avqust tarixli 637s nömrəli Sərəncamı. Rəsmi mətn: https://e-qanun.az/framework/62640

"Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 459-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 17 avqust tarixli 771 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə

1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 459-VIIQD nömrəli Qanununa (bundan sonra – Qanun) və "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 459-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 17

avqust tarixli 771 nömrəli Fərmanına (bundan sonra – Fərman) uyğunlaşdırılması ilə bağlı təkliflərini beş ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 155.5-ci maddəsinin üçüncü abzasına uyğun olaraq, dövlət mülkiyyətində olan əmlakın, o cümlədən torpaq sahəsinin qarşılıqlı razılıq əsasında müvafiq olaraq xüsusi mülkiyyətdə olan əmlakla və ya torpaq sahəsi ilə dəyişdirilməsi qaydasının layihəsini dörd ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Digər qərarlardan çıxarışlar

Qeyd. Bu bölmədə aktların adı və qiymətləndirməyə aid bəndləri verilir. Bəzi qərarlarda "müstəqil qiymətləndirici" ifadəsi hələ saxlanılır. Nazirlər Kabinetinin aktlarının 158-VIIQD nömrəli Qanuna uyğunlaşdırılması 231s nömrəli Sərəncamla tapşırılıb.

3.1. Dövlət əmlakı, özəlləşdirmə və icarə

Nazirlər Kabinetinin 1998-ci il 27 aprel tarixli 93 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/4349

Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, habelə hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlət torpaq sahələrinin normativ qiyməti haqqında Əsasnamənin təsdiq edilməsi barədə

6-1. Torpaq sahələrinin bu Əsasnamə ilə müəyyən edilən normativ qiyməti daşınmaz əmlakın dövlət reyestrində torpaq sahələrinin alqı-satqısı zamanı təşəkkül tapan bazar dəyərindən aşağı olduqda, həmin torpaq sahələrinin qiymətləndirilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

Nazirlər Kabinetinin 2001-ci il 24 yanvar tarixli 23 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/4593

Özəlləşdirilən dövlət müəssisələrinin (obyektlərinin) ilkin qiymətinə tətbiq edilən əmsalların təsdiq edilməsi barədə

6. Dövlət əmlakının özəlləşdirilməsi prosesində əmlakın qiymətləndirilməsi zamanı müəyyən edilmiş əmsalların düzgün tətbiq edilməsinə riayət edilməsi məcburidir və həmin tələblərin pozulması əmlakın qiymətləndirilməsinin etibarsız sayılması üçün əsasdır.

7. Özəlləşdirilən dövlət müəssisələrinin (obyektlərinin) start (satış) qiyməti daşınmaz əmlakın dövlət reyestrində daşınmaz əmlakın alqı-satqısı zamanı təşəkkül tapan bazar dəyərindən aşağı olduqda, həmin müəssisələrin (obyektlərin) qiymətləndirilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 177 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/5710

"Dövlət müəssisə və təşkilatlarının, habelə nizamnamə kapitalında dövlətin payı olan müəssisələrin balansında olan yararsız hala düşmüş , həmçinin oğurlanmış və ya naməlum şəraitdə

itmiş əsas vəsaitlərin (fondların) silinməsi və bu vəsaitlərin söküntüsündən əldə edilən material qiymətlilərinin satışı üzrə Qaydalar"ın təsdiq edilməsi haqqında

Komissiya öz işinə qiymətləndiricilər, müstəqil auditor, səlahiyyətli qurumların mütəxəssislərini cəlb etmək hüququna malikdir.

Nazirlər Kabinetinin 2015-ci il 10 iyul tarixli 265 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/30594

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki Təbiət Tarixi Muzeyinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında

4.1.3. "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada öz gəliri hesabına muzey əşyaları almaq;

Nazirlər Kabinetinin 2024-cü il 13 sentyabr tarixli 421 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/57955

"Liman infrastrukturunun dövlət mülkiyyətində olan obyektinin müsabiqə əsasında icarəyə verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

1.6. Müsabiqə əsasında icarəyə verilən obyektdən istifadəyə görə aylıq start icarə haqqının məbləği Qanuna və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir.

Nazirlər Kabinetinin 2024-cü il 28 dekabr tarixli 547 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/58658

"Dövlət ehtiyatları üçün malların tədarükü, saxlanılması, buraxılması, uçotu və bu sahədə nəzarətin həyata keçirilməsi, habelə dövlət ehtiyatlarına aid olan malların hərəkəti və mövcudluğu barədə hesabatın forması və təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

4.7. Bu Qaydanın 4.6-cı bəndində nəzərdə tutulan qaydada istehsalçı və ya idxal qiymətlərini müəyyən etmək mümkün olmadıqda, habelə bu Qaydanın 4.1.2-ci yarımbəndində nəzərdə tutulan halda yeniləşdirilmə ilə bağlı dövlət ehtiyatlarına aid olan malların buraxılması "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən qiymətləndirici tərəfindən təqdim edilən qiymət nəzərə alınmaqla həyata keçirilir.

3.2. Müsadirə edilmiş, həbs qoyulmuş və hərracda satılan əmlak

Nazirlər Kabinetinin 2002-ci il 18 aprel tarixli 69 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/1526

Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamənin təsdiq edilməsi haqqında

2.2. Bu Əsasnamənin 1.1-ci bəndində göstərilən əmlakın qiymətləndirilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa və digər qüvvədə olan qanunvericilik aktlarına uyğun olaraq həyata keçirilir. Qiymətləndirmənin nəticələrinə dair hesabatda "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.2-ci maddəsində göstərilən məlumatlarla yanaşı həmin əmlakı eyniləşdirməyə imkan verən məlumatlar (identifikasiya kodu, nömrəsi, modeli, istehsal tarixi və s.) göstərilməlidir.

Nazirlər Kabinetinin 2002-ci il 6 sentyabr tarixli 143 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/919

Üzərinə həbs qoyulmuş əmlakın saxlanması Qaydasının və şərtlərinin təsdiq edilməsi barədə

11. Qiymətləndirici, icra məmuru tərəfindən dəvət olunur və onun xidmətlərindən istifadə olunması ilə bağlı xərclər bərabər həcmdə tərəflərin üzərinə qoyulur.

Nazirlər Kabinetinin 2012-ci il 19 oktyabr tarixli 237 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/24478

"Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"nın təsdiq edilməsi barədə

1.3. Gömrük hərraclarında satışa çıxarılan malların ilkin satış qiyməti "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sərbəst (bazar) qiymətlər əsasında müəyyən edilir.

Nazirlər Kabinetinin 2014-cü il 22 dekabr tarixli 396 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/29035

"Dəniz terminalının operatoru tərəfindən realizə olunan yükün və ona görə hesablaşmaların uçotu Qaydası"nın təsdiq edilməsi haqqında

3.4.2. satışa çıxarılan yükün dəyərinin "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa, yaxud Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq ekspertlər tərəfindən qiymətləndirilməsi;

3.7. Sifarişçinin məlumatlandırılmasından sonra 4 (dörd) gün müddətində ərzaq və (və ya) tez korlanan yük barədə qərar qəbul edilmədikdə, dəniz terminalının operatoru belə yükü, habelə onun nəqlində, yaxud qablaşdırılmasında istifadə olunan sifarişçinin mülkiyyətində olan vasitələri (mülki qanunvericiliyə uyğun olaraq dövriyyədən çıxarılmış, yaxud dövriyyəsi məhdudlaşdırılmış yüklər, habelə ölkənin müdafiəsi, dövlət təhlükəsizliyi və asayişin təmin edilməsi üzrə ehtiyaclar üçün nəzərdə tutulmuş yüklər istisna olmaqla) yükün dəyərinin ödənilməsi haqqında sənədlərlə təsdiq edilən və adətən oxşar mallara görə tutulan qiymət və ya ekspert qiymətləndirilməsi əsasında, yaxud belə sənədlər olmadıqda, müqavilə ilə təsdiqlənən qiymət əsasında realizə etmək hüququna malikdir. Yükün dəyərinin ekspert qiymətləndirilməsi qiymətləndirmə fəaliyyəti subyektləri tərəfindən "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa, yaxud Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq, ekspertizanın aparılması yolu ilə həyata keçirilir.

Nazirlər Kabinetinin 2017-ci il 18 dekabr tarixli 564 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/37457

"İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş tez xarab olan mallar barəsində sərəncam verilməsi Qaydası"nın və "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş narkotik vasitələr və psixotrop maddələr, həmçinin müvafiq standartlara, sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə cavab verməyən etil spirti, alkoqollu və tərkibində spirt olan məhsulların yenidən istehsala göndərilməsi və ya məhv edilməsi Qaydası"nın təsdiq edilməsi barədə

2.4. Mallar sınaqdan keçirildikdən sonra "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada qiymətləndiricilər tərəfindən

qiymətləndirilir. Malların qiymətləri dövlət tərəfindən tənzimləndikdə, dövlət tənzimləmə qiymətləri tətbiq edilir. Digər hallarda malların qiyməti bazar qiymətinə əsasən müəyyən edilir.

Nazirlər Kabinetinin 2019-cu il 6 avqust tarixli 343 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/43091

"Özünüməşğulluğa cəlb olunmuş şəxsdən geri alınmış əmlakın açıq hərracda satılması Qaydası"nın təsdiq edilməsi haqqında

3.6. Hərraca çıxarılan əmlakın qiymətləndirilməsi Satıcı tərəfindən təşkil edilir və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq həyata keçirilir. İlkin satış qiyməti elan olunduqdan sonra iştirakçılar öz biletlərini qaldırmaqla, elan olunmuş qiymətə əmlakı almağa razı olduqlarını bildirirlər.

Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 516 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/46612

"Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 aprel tarixli 69 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə"də dəyişiklik edilməsi haqqında

2.4. Bu Qaydanın 2.3-cü bəndində qeyd olunan hərəkətlər edildikdən sonra icra məmuru qəbul etdiyi qərar əsasında 5 (beş) iş günü müddətində qiymətləndiricinin dəvət olunması ilə bağlı tədbirlər görür. Xüsusi müsadirə edilmiş dövlət mülkiyyətinə keçən əmlakın məcburi qiymətləndirilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

2.5. Qiymətləndirməyə görə xidmət haqqı "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 17.2-ci maddəsinə uyğun olaraq ödənilir.

2.7. Qiymətləndirmənin nəticələrinə dair hesabatda "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.2-ci maddəsində göstərilən məlumatlarla yanaşı həmin əmlakı eyniləşdirməyə imkan verən məlumatlar (dövlət qeydiyyatı barədə məlumatlar, identifikasiya kodu, nömrəsi, modeli, istehsal tarixi və s.) göstərilməlidir.

Nazirlər Kabinetinin 2022-ci il 24 sentyabr tarixli 371 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/52503

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin hərrac vasitəsilə satışı Qaydası"nın təsdiq edilməsi haqqında

2.3. Mənzillərin başlanğıc qiyməti "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Nazirliyin cəlb etdiyi müstəqil qiymətləndirici tərəfindən müəyyən edilir.

Nazirlər Kabinetinin 2023-cü il 4 avqust tarixli 267 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/54901

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı tərəfindən "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətindən alınmış problemli aktivlərin əvəzində mövcud qanunvericiliyə uyğun olaraq əldə edilmiş və balansında olan, balans dəyəri 1 (bir) milyon manatdan çox olan əmlakların, yerli və xarici aktivlərin və ya onlar üzrə borcların

tələb hüquqlarının satılması və kənar idarəçilərə idarəetməyə verilməsi üzrə Müsabiqə Komissiyasının yaradılması barədə

3.1. "Aqrarkredit" QSC-nin əsaslandırılmış təklifləri əsasında:

3.1.2. problemli əmlaklar və onlar üzrə tələb hüquqlarının hər hansı biri barədə satış qərarı qəbul edildikdə müvafiq əmlak üzrə seçilmiş nüfuzlu müstəqil qiymətləndiricinin rəyi nəzərə alınmaqla, əmlakın ilkin satış qiyməti barədə qərar qəbul etsin, habelə müsabiqə vasitəsilə satıldıqda müsabiqənin şərtlərini müəyyən etsin;

2.3. Müsabiqə Komissiyası problemli aktivlər (əmlaklar) və onlar üzrə tələb hüquqlarının satılması, idarəetməyə verilməsi və iştirak payı kimi qoyulması ilə bağlı müvafiq təklifləri müzakirə edərək və aşağıdakı sənədlərə, eləcə də onlarla əlaqəli digər sənədlərə baxaraq müvafiq qərarlar qəbul edir:

2.3.1. əmlakların ilkin satış qiyməti barədə əsaslandırılmış təklif və müstəqil qiymətləndiricinin rəyi;

2.4. Müsabiqə Komissiyası müstəqil qiymətləndiricinin müəyyən etdiyi bazar dəyəri nəzərə alınmaqla əmlakın ilkin satış qiymətini təsdiq edərək onun həmin qiymətlə hərrac vasitəsilə satışı barədə müvafiq qərar qəbul edir. Bundan sonra həmin əmlak "Aqrarkredit" QSC tərəfindən hərraca çıxarılır.

3.3. Zərərin və kompensasiyanın müəyyən edilməsi

Nazirlər Kabinetinin 2007-ci il 16 aprel tarixli 66 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/13076

Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında

Karantin rejiminin tətbiqi və ya zərərli orqanizmlərin ləğvi, xüsusi təhlükəli heyvan xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi və ləğvi zamanı hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın əvəzinin ödənilməsi

QAYDALARI

2.2. Fiziki və hüquqi şəxslərə dəymiş maddi ziyanın məbləğinin müəyyən edilməsi məqsədilə xəstəliklər aşkar edilən gündən mal sahibi və (və ya) əmlakından və ehtiyatlarından istifadə edilmiş hüquqi və fiziki şəxs tərəfindən 1 (bir) iş günü müddətində "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müstəqil qiymətləndirici dəvət edilir.

2.3. Dəymiş ziyanın qiymətləndirilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir və yekunda qiymətləndirici tərəfindən qiymətləndirmənin nəticələri haqqında hesabat tərtib edilərək mal sahibinə və (və ya) əmlakından və ehtiyatlarından istifadə edilmiş hüquqi və fiziki şəxsə təqdim olunur.

Nazirlər Kabinetinin 2019-cu il 26 noyabr tarixli 455 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/44272

"Hərbi vəziyyət rejiminin təmin edilməsi və onun nəticələrinin aradan qaldırılması üçün görülən işlərin maliyyələşdirilməsi Qaydası"nın təsdiq edilməsi barədə

3.6. Hərbi idarəetmə orqanı kompensasiyanın hesablanması üçün "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qiymətləndirici cəlb edir.

Nazirlər Kabinetinin 2023-cü il 28 dekabr tarixli 484 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/55981

"Radiotezliklərin müddətli ayrılmasına keçid ilə əlaqədar olaraq, radiotezlik istifadəçilərinə vurulan zərərə görə kompensasiyanın verilməsi şərtləri və mexanizmi"nin təsdiq edilməsi barədə

3.4. Nazirlik kompensasiya məbləğini müəyyən etmək üçün aşağıdakı tədbirləri həyata keçirir:

3.4.4. razılaşma əldə edilmədikdə və ya kompensasiya məbləğinin müəyyən edilməsi zərurəti yarandıqda, radiotezlik istifadəçisinin hesabına müstəqil qiymətləndirici cəlb edir;

3.4. Digər sahələr

Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/488

Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə

Torpaq sahələri bazar qiymətləri ilə, lakin Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Torpaqların yeni normativ qiymətlərinin müəyyən edilməsi haqqında" qərarı ilə müəyyən olunmuş qiymətdən aşağı olmamaq şərti ilə qiymətləndirilir.

Müəssisələrin qiyməti onların son balans qiymətindən aşağı olmamaqla qiymətləndirilir.

Vərəsələr qoyulmuş qiymətlə razılaşmadıqda, qiymətləndirici dəvət edə bilərlər. Qiymətləndirməyə görə xidmət haqqını vərəsələr ödəyirlər.

Qeyd. Təlimatın miras əmlakın siyahıya alınması və qiymətləndirilməsinə dair hissəsindən.

Nazirlər Kabinetinin 2020-ci il 13 avqust tarixli 293 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/45736

"Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının tərtib edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

2.1.1. ipoteka qoyan ipoteka müqaviləsi notariat qaydada təsdiq edildiyi gün Elektron Hökumət İnformasiya Sistemində yaratdığı elektron kabinet vasitəsilə gücləndirilmiş elektron imzadan istifadə etməklə elektron sistemdə müəyyən edilmiş formaya uyğun, ipoteka müqaviləsinin əsasında aşağıdakı məlumatları göstərməklə ipoteka kağızını tərtib edir:

15. ipoteka predmetinin ilkin satış qiyməti və ya bu qiyməti müəyyən edəcək müstəqil qiymətləndiricilər;

Nazirlər Kabinetinin 2023-cü il 25 iyul tarixli 239 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/54721

"Siyasi partiyaların qəbul etdikləri ianələrin məbləği və ianəni vermiş şəxslər, həmçinin "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanununun 24.4.1-ci və 24.4.2-ci maddələrində nəzərdə tutulmuş hallar barədə məlumatların təqdim edilməsi qaydası"nın təsdiq edilməsi haqqında

1.4. Şəxsin bir və ya bir neçə siyasi partiyaya il ərzində verdiyi ianələrin yuxarı həddi minimum əmək haqqının 35 mislindən artıq ola bilməz. Digər əmlak şəklində qəbul edilmiş ianənin dəyəri bazar qiyməti ilə müəyyən edilir. İanənin dəyərinin bazar qiyməti ilə müəyyən edilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğun həyata keçirilir.

Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 501 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/56027

"Ehtimal olunan qiymətin hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında

8. Qiymətləndirici üsulun tətbiqi

8.1. Satınalma predmetinin icrasını həyata keçirən təchizatçı sayı bazarda məhdud olduqda və ya həcminə və mürəkkəbliyinə görə təchizatçılar tərəfindən ehtimal olunan qiymət üçün təklif hazırlamaq xərcləri yüksək olduqda qiymətləndirici üsul tətbiq edilir.

8.2. Qiymətləndirici üsulu tətbiq edən satınalan təşkilat aşağıdakıları edir:

8.2.1. "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq fəaliyyət göstərən qiymətləndiricini Qanuna uyğun müəyyən edərək bu Qaydanın 4.2.1-ci yarımbəndində nəzərdə tutulan formada sorğu göndərir;

8.2.2. qiymətləndiricidən rəsmi məktub ilə daxil olmuş məlumatlar əsasında ehtimal olunan qiymət hesablanır və bu Qaydanın 1 nömrəli əlavəsində göstərilmiş formanı tərtib edərək təsdiqləyir.

Nazirlər Kabinetinin 2026-cı il 19 mart tarixli 85 nömrəli Qərarı. Rəsmi mətn: https://e-qanun.az/framework/61576

"Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə Qaydası"nın təsdiq edilməsi və "Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 216 nömrəli Qərarının ləğv edilməsi barədə

1.12. Qanunun 19.4-cü maddəsinin dördüncü cümləsinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi Reyestrə daxil edilmiş texniki xidmət aktlarının təhlili əsasında görülmüş işlərin dəyərinin "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müəyyən edilmiş bazar qiymətinə uyğunluğuna mütəmadi nəzarət edir, habelə əvvəlki ildə tərtib edilmiş texniki xidmət aktlarına əsasən onların orta qiymətini müəyyən edir və rəsmi internet saytında yerləşdirir.